# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında**

“Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və digər aidiyyəti dövlət orqanları “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş dövlət büdcəsinin gəlirləri üzrə göstəricilərin yerinə yetirilməsi üçün müvafiq tədbirlər görsünlər.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının (bundan sonra – Fərman):

2.1. 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak) abzasında nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsü barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılmış təkliflərini bir ay müddətində;

2.2. 1.1.2.2-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) abzasında nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə manat və müvafiq xarici valyutalarda bölgüsü barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılmış təkliflərini bir ay müddətində;

2.3. 1.1.2.3-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin tədbirlər üzrə bölgüsü barədə təkliflərini bir ay müddətində;

2.4. 1.1.2.4.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin tədbirlər üzrə bölgüsü barədə təkliflərini iki ay müddətində;

2.5. 1.1.3.1-ci (Xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımlar) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü barədə təkliflərini bir ay müddətində;

2.6. 1.1.1.57-ci (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.1.3-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.2.1.4-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər), 1.3.6.2-ci (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.3.6.3-cü (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.5.5.5-ci (Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.6.4.5-ci (Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.7.5.24-cü (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.9.1.5-ci (Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər), 1.11.6.25-ci (İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.12.4.1-ci (Dövlət ehtiyatlarının yaradılması) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsü və həmin bölgüdə dəyişikliklər barədə təkliflərini;

2.7. 1.1.1.56-cı (Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi), 1.1.4.20-ci (Elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.1.6.2-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya), 1.1.6.3-cü (Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya), 1.4.8.9-cu (Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər), 1.4.8.10-cu (Təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər) abzaslarında nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsü barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Energetika Nazirliyi Fərmanın 1.8.2.7-ci (İstilik təchizatı sistemində islahatlarla bağlı tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırılmış təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Fərmanın 1.11.6.4-cü (Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.2. Fərmanın 1.11.6.26-cı (Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin.

5. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Fərmanın 1.12.4.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər) abzasında nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla bölgüsünü həyata keçirsin.

6. Fərmanın 3.6-cı bəndinə uyğun olaraq Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən nərə balıq növünün süni artırılması, təbii populyasiyasının bərpası, qorunması və laboratoriyaların fəaliyyətinin təmin

edilməsi işlərinin dövlət sifarişi kimi təsdiq olunması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

7. Fərmanın 3.7-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən şəhərsalma işlərini dövlət sifarişi kimi təsdiq olunması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin müraciəti əsasında Fərmanın 3.8-ci bəndi ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

9. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla Fərmanın 3.9.1-ci, 3.9.2-ci və 3.9.3-cü yarımbəndləri ilə bağlı təkliflərini beş ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

10. Bu Sərəncamın 2.1-ci, 2.2-ci, 2.3-cü, 2.4-cü və 2.5-ci bəndlərinin icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinə, 2.6-cı və 2.7-ci bəndləri üzrə Fərmanın 1.1.1.56-cı, 1.1.1.57-ci, 1.1.6.2-ci, 1.1.6.3-cü, 1.11.6.25-ci abzaslarının və bu Sərəncamın 4-cü hissəsinin icrası İqtisadiyyat şöbəsinə, 2.6-cı və 2.7-ci bəndləri üzrə Fərmanın 1.2.1.3-cü, 1.2.1.4-cü, 1.2.5.2-ci, 1.3.6.3-cü, 1.12.4.1-ci abzaslarının icrası Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinə, 1.3.6.2-ci, 1.4.8.10-cu, 1.5.5.5-ci, 1.6.4.5-ci abzaslarının icrası Sosial məsələlər şöbəsinə, 1.1.4.20-ci, 1.4.8.9-cu, 1.7.5.24-cü abzaslarının icrası Humanitar məsələlər şöbəsinə, bu Sərəncamın 3-cü hissəsinin icrası Sənaye və energetika şöbəsinə, 5-ci və 7-ci hissələrinin icrası Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinə, 6-cı, 8-ci hissələrinin və 2.6-cı bəndi üzrə Fərmanın 1.9.1.5-ci abzasının icrası Aqrar və ekologiya şöbəsinə, bu Sərəncamın 9-cu hissəsi üzrə Fərmanın 3.9.1-ci və 3.9.3-cü yarımbəndlərinin icrası Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinə, 3.9.2-ci yarımbəndinin icrası isə Hüquq və qanunvericilik şöbəsinə həvalə edilsin.

11. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 29 ” “ dekabr ” 2024-cü il

№ 684s